Yazan
11.08.13 21:31 -

“Dağlıq Qarabağ kimi münaqişələrdə status-kvonun saxlanması çıxış yolu deyil”.

Bunu İtaliyanın baş naziri Enriko Letta avqustun 11-də Bakıda Azərbaycan prezidenti İlham Əliyevlə görüşdən sonra keçirilən mətbuat konfransında Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibət bildirərkən deyib.

Baş nazir ölkəsinin ATƏT-in Minsk Qrupunun fəaliyyətini dəstəklədiyini vurğulayıb.

“Biz hesab edirik ki, uzunmüddətli münaqişələr heç kimin maraqlarına xidmət etmir, heç kimin xeyrin deyil”. – deyə E. Letta bildirib.

Baş nazir qeyd edib ki, İtaliya növbəti il Avropa Birliyinə sədrlik edəcək və sədrliyi dövründə münaqişələrin həlli istiqamətində atılan addımlara dəstək məqsədilə müəyyən tədbirlər həyata keçirəcək.